Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

Azərbaycan kitabı

BİBLİOQRAFİYA

ON CİLDDƏ

III CİLD

(1941 - 1950)

BAKI - 2014

KBT Я12
UOT 017

Tərtibçilər: **L.Talıbova**
B.Orucova
V.Məmmədova
N.Hüseynova
G.Hüseynova

Baş redaktor, ön söz və müqəddimənin müəllifi: **K.M.Tahirov,**
professor,
Əməkdar mədəniyyət işçisi

Redaktorlar: **Z.Qulamova,**
L.Bağırova

Azərbaycan kitabı: biblioqrafiya [10 cilddə] /baş red., ön söz və müqəd. müəl. K.Tahirov; tərt.: L.Talıbova [və b.]; red.: Z.Qulamova, L.Bağırova.- Bakı, 2014.- C.III: (1941-1950).- 488 səh.

Oxuculara təqdim olunan "Azərbaycan kitabı" fundamental biblioqrafiyasının 3-cü cildində 1941-1950-ci illərdə Azərbaycan ərazisində bütün elm sahələrinə dair çap olunan, eyni zamanda keçmiş Sovetlər birliyinin ərazisində digər müəlliflər tərəfindən Azərbaycan haqqında yazdıqları kitab və kitabçalar öz əksini tapmışdır. Göstəricidə ümumilikdə 4897 ədəbiyyatın biblioqrafik təsviri verilmiş və materiallar şöbələr üzrə universal onluq təsnifat əsasında ayrı-ayrı elm sahələrinə uyğun olaraq tərtib olunmuşdur.

ISBN 978-9952-460-42-1

© Azərbaycan Milli Kitabxanası, 2014

Ön söz

Bəşəriyyətin ən mütərəqqi kəşfi hesab olunan kitab çapının meydana gəlməsindən bugünümüzədək neçə əsrlərdir ki, əlahəzrət kitab mənəvi və əqli sərvətlərimizin nəsillərdən-nəsillərə ötürülməsində əvəzsiz rol oynamaqdadır. İldən-ilə kitab çapının genişlənməsi də öz növbəsində külli miqdarda kitab dənizində insanların düzgün istiqamətlənməsinə və bu barədə dolğun informasiyanın verilməsinə ehtiyac yaratmışdır. Bütün bunlar isə milli kitab repertuarının yaranmasına gətirib çıxarmışdır.

Milli kitab repertuarı və başqa sözlə desək, milli biblioqrafiya dilindən, mövzusundan, formasından, növündən asılı olmayaraq ölkə ərazisində dərc olunan bütün çap əsərlərini əhatə edir. Azərbaycanda milli kitabın tam repertuarının və daha dəqiq desək universal xarakterli fundamental milli biblioqrafiya vəsaitlərinin tərtibi ideyası hələ XX əsrin 40-ci illərində yaranmışdır. Lakin Böyük Vətən müharibəsinin başlanması bu işi yarımçıq qoymuşdur və müharibə qurtardıqdan sonra 50-ci illərdə bu iş davam etdirilərək ilk universal xarakterli fundamental milli biblioqrafiya vəsaitimiz olan "Azərbaycan kitabı" biblioqrafiyası 1963-cü ildə nəşr olunmuşdur. Bu vəsait həmin dövrdə Azərbaycan kitabının arxivini yaratmaq missiyasını yerinə yetirən Azərbaycan Dövlət Kitab Palatasının, M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının, Elmlər Akademiyasının Əlyazmaları İnstitutunun işçilərinin birgə səyləri və dünyanın iri kitabxanalarında gərgin axtarışları nəticəsində meydana gəlmişdir. 1870-ci ildən 1920-ci ilədək olan dövrü əhatə edən I cilddə ümumiyyətlə 1329 adda Azərbaycan, rus, ərəb, fars və fransız dillərində yazılan kitablar öz əksini tapmışdır.

1780-ci ildən başlayaraq bugünümüzədək Azərbaycan çap kitabının tam repertuarını yaradacaq bu ilk milli biblioqrafiya göstəricisinin üç cilddə çap olunması nəzərdə tutulsa da, müəyyən çətinliklər səbəbindən onun sonrakı cildlərinin nəşri gecikir və yalnız 1982-ci ildə II cildin birinci kitabı işıq üzü görə bilir. "Azərbaycan kitabı" biblioqrafiyasının II cildi iki kitabdan ibarət olmalı idi və 1-ci kitabda 1920-1940-cı illərdə Azərbaycanda çap olunan humanitar elmlərə dair kitablar, 2-ci kitabda isə həmin dövrdə təbiət elmlərinə, texnika və kənd təsərrüfatına dair dərc olunmuş kitablar öz əksini tapmalı idi. Lakin bizə məlum

olmayan qeyri-müəyyən səbəblər üzündən ikinci kitab çap olunmamışdır. II cildin birinci kitabında cəmi 7063 adda humanitar profilli kitab və kitabçaların biblioqrfik təsviri verilmişdir.

2000-ci ildə Dövlət Kitab Palatasının ləğvi milli biblioqrafiya vəsaitinin tərtibini və nəşrini demək olar ki, dayandırmış olur və yalnız 2003-cü ildə onun funksiyalarının M.F.Axundov adına Milli Kitabxanaya verilməsindən sonra milli kitabımızın repertuarının tərtibi işlərinə başlanılır. Artıq 2005-ci ildən "Birillik Azərbaycan Kitabiyyatı"nın və "Yeni kitablar" annotasiyalı biblioqrafik informasiya bülleteninin nəşri bərpa olunur və repertuar üzərində işlər davam etdirilir. Lakin çox təəssüflər olsun ki, "Azərbaycan kitabı" biblioqrafiyasının II cildinin 80-ci illərdə çapa hazırlanmış ikinci kitabının materiallarını tapıb üzə çıxarmaq mümkün olmur və bu səbəbdən də ölkə ərazisində dərc olunan ədəbiyyatın milli biblioqrafiyasını tərtib etmək missiyasını öz üzərinə götürən M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası hazırda II cildin ikinci kitabına daxil olacaq materialların yenidən toplanması işlərini davam etdirir.

Digər tərəfdən Milli Kitabxana son 5 il ərzində "Azərbaycan kitabı" biblioqrafiyası üzərində işi davam etdirmək məqsədilə 1941-1950-ci illərdə çap olunan ədəbiyyatı əhatə edən III cild üçün və 1951-1960-ci illərdə respublikamızda çap olunan ədəbiyyatı özündə əks etdirən IV cild üçün materialların toplanması işini həyata keçirmişdir.

Hazırda oxuculara təqdim olunan "Azərbaycan kitabı" fundamental biblioqrafiyasının 3-cü cildində 1941-1950-ci illərdə Azərbaycan ərazisində bütün elm sahələrinə dair çap olunan, eyni zamanda keçmiş Sovetlər birliyinin ərazisində digər müəlliflər tərəfindən Azərbaycan haqqında yazdıqları kitab və kitabçalar öz əksini tapmışdır. Göstəricidə ümumilikdə 4897 ədəbiyyatın biblioqrafik təsviri verilmişdir və materiallar şöbələr üzrə universal onluq təsnifat əsasında ayrı-ayrı elm sahələrinə uyğun olaraq tərtib olunmuşdur. Şöbələr daxilində yarımbölmələr və lazım gəldikdə (kifayət qədər material olduqda) rubrikalar ayrılmışdır. Hər bir bölmə və yarımbölmə daxilində əvvəlcə Azərbaycan dilində ədəbiyyat, sonra isə rus dilində olan ədəbiyyat daxili əlifba sırası ilə qruplaşdırılmışdır.

Hazırki biblioqrafiyaya öz siyasi, tarixi və bədii əhəmiyyətini itirmiş kitabçalar daxil edilməmişdir.

Fundamental biblioqrafiyanın universal xarakter daşıdığı nəzərə alınaraq ondan oxucuların istifadəsini asanlaşdırmaq məqsədilə vəsaitin sonunda köməkçi göstəricilər tərtib olunmuşdur. Biblioqrafiyada materiallar elm sahələrinə görə şöbələr üzrə qruplaşdırıldığına görə "Müəlliflərin əlifba göstəricisi" və vəsaitin mətnində sərlövhə üzrə təsvir olunmuş ədəbiyyatın əlifba göstərici verilmişdir.

On illik bir dövr ərzində Azərbaycanda bütün elm sahələri üzrə çap olunan bütün ədəbiyyatın əhatə olunması kimi çox geniş bir mövzunu əhatə etdiyinə görə bu fundamental milli biblioqrafiya vəsaitində təbii ki, çatışmazlıqlar da,

əhatə dairəsindən kənarda qalan nəşrlər də ola bilər. Tərtibçilər bütün bunlara görə əvvəlcədən oxuculardan üzr istəyir və əlavələrini və təkliflərini Milli Kitabxanaya göndərmələrini xahiş edirlər (Ünvan: AZ-1000, Bakı şəh., Xaqani küç. 57; E-mail: contact@anl.az; URL: www.anl.az).

Ümid edirik ki, Azərbaycan Milli Kitabxanasının əməkdaşlarının uzunmüddətli gərgin əməyinin və axtarışlarının nəticəsi olan bu biblioqrafiya tədqiqatçı-alimlərin, mütəxəssislərin və bütün oxucu kütlələrinin dərin marağına səbəb olacaq, onların stolüstü kitabına çevriləcəkdir.

Kərim Tahirov,
M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor

Müqəddimə

XX əsrin 40-cı illərinin əvvəlləri Azərbaycan tarixinə ən mürəkkəb və ağır, həm də mübariz, qəhrəmanlıqla dolu böyük sınaq dövrü kimi yazılmışdır. 1941-1945-ci illərdə II Dünya müharibəsində Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də müharibənin əvvəlindən axırınadək onda fəal iştirak etmiş, bütün maddi və mənəvi sərvətləri, insan qüvvəsi faşizmə qarşı müharibəyə cəlb edilmişdi. Azərbaycan xalqı İkinci Dünya müharibəsində ölkənin qalib çıxmasında öz layiqli töhfəsini vermiş, adı XX əsrdə faşizmə qarşı mübarizə salnaməsinə qızıl hərflərlə yazılmışdır. Müharibə illərində "arxa cəbhə" adı altında Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatı müharibənin tələblərinə uyğun şəkildə qurulmuşdu. Fəhlə və qulluqçuların iş günü rəsmi olaraq 11-12 saata qaldırılmış, məzuniyyətlər ləğv olunmuşdu, hətta işdən yayınanlara və ya gecikənlərə cinayət maddəsi müəyyən edilmişdi. Müharibə illərində yaradıcı ziyalılar-yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar qələbə naminə əllərindən gələni əsirgəməmişdilər. Onlar öz əsərlərində insanlarda Vətənə məhəbbət, düşmənə nifrət hissləri aşılamış, əsgərlərdə vətənpərvərlik hisslərini qüvvətləndirmiş, qələbə əzmini və faşizm üzərində qələbəyə inam yaratmışdılar. Bundan başqa onlar vaxtaşırı döyüş cəbhələrinə getmiş, əsgərlər və zabitlər qarşısında çıxışlar edərək onları qələbəyə ruhlandırmış, qələbə əzmini qüvvətləndirmişdilər. Bu sahədə Azərbaycanın görkəmli şair və yazıçılarından Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mir Cəlal Paşayev, Rəsul Rza, Əli Vəliyev və başqalarının unudulmaz xidmətləri olmuşdur. Müharibədə qələbənin başlıca rəhnini xalqın ordu ilə birgə olması, ön cəbhə ilə arxa cəbhə arasında əlaqənin möhkəmliyi təşkil etmişdi. Arxa cəbhə daim ön cəbhə üçün möhkəm dayaq olmuşdu. Əhali ölkə iqtisadiyyatını inkişaf etdirməklə yanaşı, cəbhəyə təmənnasız köməyini də əsirgəməmişdi. Belə ki, müharibə illərində Azərbaycanın fəhlə və kəndliləri, ziyalıları müdafiə fonduna şəxsi əmlaklarından 15,5 kq qızıl, 952,5 kq gümüş, 295 milyon manat pul, 15 milyon manatlıq qızıl istirqaz vermişdilər.

Müharibənin ilk günlərindən başlayaraq bütün idarə, müəssisə və təşkilat-

lar öz işlərini hərbi şəraitə uyğunlaşdırdıqları kimi, bütün mətbaquat, nəşriyyat və mədəni-maarif müəssisələri də öz işlərini müharibə ilə əlaqədar qarşıya çıxan mühüm vəzifələrə tabe etmişdilər. Ölkədə hökm sürən iqtisadi çətinlik üzündən nəşriyyat işi də xeyli zəifləmişdi. Bu çətinlik özünü hərşeydən əvvəl kağız çatışmazlığında göstərmişdi. Kağız istehsalının zəifləməsi, başqa təchizat vasitələrinin xeyli azalması, müəllif, redaktor, çapçı və digər mütəxəssislərin cəbhəyə səfərbər olunması kitab çapının ümumi həcminə mənfi təsir göstərməyə bilməzdi. Eyni zamanda kitabların bədii tərtibat səviyyəsi xeyli aşağı düşmüş, formatı kiçilmişdi. Kitablar keyfiyyətsiz kağızlarda və cildsiz buraxılırdı. Nəşriyyatlar tərəfindən nəşr edilən kitabların mövzu istiqaməti və məzmun əhatəliyi xarakter baxımından da xeyli dəyişmişdi. Artıq müharibə dövrünün tələbinə uyğun olaraq nəşriyyatlarda əsasən ictimai-siyasi, təbliğat və vətənpərvərlik xarakterli əsərlər çap edilirdi. 1941-1945-ci illərdə xalqı faşist işğalçılarına qarşı mübarizəyə və "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarının həyata keçirilməsinə səfərbər edən əsərlər çap məhsulu içərisində üstünlük təşkil edirdi. Bu illərdə kiçik həcmli kitabçaların buraxılmasına daha çox diqqət yetirilirdi.

Böyük Vətən müharibəsi illərində Azərbaycan Dövlət Nəşriyyatı (Azərnəşr) ilə yanaşı, Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı (Uşaqgəncnəşr), Azərbaycan Dövlət Musiqi Nəşriyyatı, Azərneftnəşr, SSRİ Elmlər Akademiyası Azərbaycan filialının nəşriyyatı, habelə müxtəlif elmi müəssisə və idarə nəşriyyatları fəaliyyət göstərirdi.

Müharibə illərində Azərbaycanda siyasi plakatların nəşr edilməsinə xüsusi diqqət yetirilir, mərkəzi nəşriyyatlardan respublikamıza külli miqdarda plakat göndərilirdi. Bu dövrdə Azərbaycan Birləşmiş Qəzet-jurnal Nəşriyyatı tərəfindən Azərbaycan dilində 350 min təbliğat vərəqəsi, 47 min kitabça, 116 min "Mübariz vərəq", rus dilində 8100 kitabça, 24500 vərəqə buraxılmışdır. Ümumiyyətlə, 1941-1945-ci illərdə nəşriyyatlarımız tərəfindən 1,5 milyon nüsxə tirajla 3178 adda kitab nəşr edilmişdir.[1] Cəbhəyə göndərilən kitabların əksəriyyəti Azərnəşrdə çap olunurdu. Nəşriyyat cəbhədə kitaba olan ehtiyacı ödəmək üçün xalqımızın tarixi qəhrəmanlığından, Azərbaycanın igid oğullarının düşmənə qarşı apardığı mübarizədən bəhs edən, döyüşçüləri qələbəyə ruhlandıran hərbi mövzuda kitabların nəşrinə xüsusilə geniş yer vermişdi. "Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizə tarixindən" (1941), "Faşizm insan mədəniyyətini məhv edir" (1941), "Faşizm bəşəriyyətin qəddar düşmənidir" (1941), "Hərbi və dövlət sirrini göz bəbəyi kimi saxlamalı" (1941), "Böyük Vətən müharibəsi və ictimai elm" (1942), "Biz qalib gələcəyik" (1942), "Qaf-

[1] Xələfov A. XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işinin tarixi : Azərbaycanda kitabxana işinin tarixi: üç hissədə: dərslik /Red: K.Aslan; Rəyçilər. R.Kazımov, E. Əhmədov.- II hissə.-Bakı, 2007.-S.441.

qaz uğrunda vuruşmalar" (1942), "Qələbənin rəhni-mərdlikdə, cəsarətdə arxa ilə cəbhənin birliyindədir" (1942), "Azəbaycan xalqının azərbaycanlı döyüşçülərə məktubu" (1943), "Zəfər bizimlədir!" (1944), "Sovet İttifaqı Qəhrəmanı İdris Süleymanov" (1944) və s. belə nəşrlərdəndir. Təkcə müharibənin ilk iki ili ərzində cəbhəyə göndərmək üçün Azərnəşrdə 300 adda təxminən 227 min manatlıq ədəbiyyat çap edilmişdi.[2]

Məzmun baxımından ictimai-siyasi nəşrlər, o cümlədən marksizm-leninizm ədəbiyyatı bu dövrdə üstünlük təşkil edirdi. Xüsusən də elmi kommunizm nəzəriyyəsinin yaradıcısı və liderlərindən F.Engels, K.Marks, kommunist partiyasının qurucusu və lideri olan V.İ.Leninin əsərləri, İ.V.Stalinin əsərləri çoxcildliklə həm Azərbaycan, həm də rus dilində nəşr edilmişdi. Ümumiyyətlə, 1942-1945-ci illərdə marksizm-leninizm klassiklərinin 33 adda əsəri nəşr olunub oxuculara çatdırılmışdı.

1941-1945-ci illərdə nəşr edilmiş kitablardan danışarkən demək olar ki, müharibə dövründə Azərbaycanın qəhrəmanlıq tarixindən, mərd oğul və qızlarından, tariximizin əvəzsiz sərkərdələrindən, Sovet İttifaqı Qəhrəmanlarından, generallarımızdan bəhs edən həm Azərbaycan, həm də rus dilində tarixi kitabların nəşrinə geniş yer verilmişdi. Tarixə dair hər biri 5000-10 000 nüsxə ilə təxminən 200 adda kitab nəşr edilmişdi. Bu kitablardan "Azərbaycanın şanlı oğulları" (1942), İbrahimov Z. "Azərbaycan xalqı döyüşkən xalqdır" (1942), "Əsir və yaralı qızıl əsgərlər üzərində faşistlərin vəhşilikləri" (1942), Qazıyev M. "Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizə tarixindən"(1942), "Sovet İttifaqı Qəhrəmanı kiçik leytenant İsrafil Məmmədov"(1942), "German faşistlərinin vəhşilikləri" (1942), Cabbar M. "İgid qızlar" (1943), "Azərbaycan tarixi" (1943), Hüseynov İ. "İsmayıl Səfəvi" (1943), Petruşevski İ.P. "Azərbaycan xalqının XIII-XIV əsrlərdəki qəhrəmanlıq mübarizəsindən" (1943), Şükürzadə Ə. "Qacar işğalçılarına qarşı mübarizə tariximizdən" (1943), "Azərbaycanın qəhrəman oğlu Həzi Aslanov" (1943), "Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov" (1943), Axundov B. "Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruşmalarda" (1943), Aleksandrov Q.F. "Vətən müharibəsinin hədələyici dövrü"(1943), Aslanova X. "Azərbaycan oğulları Stalinqrad uğrunda vuruşmalarda"(1943), "Azərbaycan xalqının igid oğulları vətən müharibəsində" (1944), Barsukov E.Z. "Əliağa Şıxlinski" (1944), Hüseynov H. "Azərbaycan ziyalıları vətən müharibəsi günlərində" (1944), İbrahimov Z. "Babək" (1944), "Azərbaycan SSR-nin XXV illiyi" (1945) və başqalarını nümunə göstərmək olar.

Böyük Vətən müharibəsi illərində Bakı döyüşkən ordunun cəbhəxanalarından birinə çevrilmişdi. Burada "Katyuşa"raketi, "Şnakin"pulemyotu, "YAK-3"

[2] Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri.-Bakı, 1989.- S.143.

qırıcı təyyarələri yığılaraq düzəldilirdi. Ümumiyyətlə, Bakıda 130 növ silah və hərbi sursat istehsal olunurdu. Neft maşınqayırma zavodlarının çoxu hərbi sursat istehsal edən müəssisələrə çevrilmişdilər. Leytenant Şmidt adına zavodda minamyot, pulemyot və tank hissələri hazırlanırdı. Gəncə şəhərində 12 sənaye müəssisəsi müharibənin tələblərinə uyğun olaraq yenidən qurulduqdan sonra 26 adda hərbi məhsul istehsal etmişdi. Neft sənayeçiləri cəbhəni neft məhsulları ilə təmin etmək üçün gecə-gündüz çalışmış, 1941-ci ildə 23,5 min ton neft və 26 min kub metrə yaxın qaz istehsal etmişdilər. Məhz neftçilərin fədakar əməyi sayəsində Azərbaycan 1941-1945-ci illərdə SSRİ-yə 75 milyon ton neft vermişdi. Bu da SSRİ-də hasil olunan neftin 82,5 faizini təşkil edirdi. Azərbaycanın digər sənaye sahələri də öz işlərini müharibənin tələblərinə uyğun qurmuşdular. Yüngül sənaye müəsssisələri 1942-ci ildə cəbhə ehtiyacları üçün 30-a qədər məhsul növü istehsal etmişdilər. Bakıda əsgərlər üçün keçə ayaqqabı, paltar, kimyəvi silahlar əleyhinə geyim, hərbi xəstəxanalar üçün mebel, yanğın əleyhinə alətlər və s. ləvazimatlar istehsal edilirdi. Belə bir şəraitdə milyonlarla insan, o cümlədən qadınların və yeniyetmələrin əksəriyyəti cəbhəyə getmiş işçiləri əvəz etmək məqsədilə sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələrində yeni peşələrə yiyələnmişdilər. Odur ki, dövrün tələbinə uyğun olaraq istehsalat-texniki ədəbiyyat üzrə kitab nəşrinə olan tələbat günbəgün artırdı. Bunu nəzərə alaraq nəşriyyatlar kitabların nəşrində həm ümumi istehsalat xarakterli, həm də müdafiə əhəmiyyətli sənaye müəssisələrində, zavodlarda çalışan mütəxəssislərin, həm də sıravi oxucuların ehtiyaclarını nəzərə alırdı. Neft və qaz yataqlarının işlənməsi, öyrənilməsi və inkişafının nəticələri alimlərin, geoloqların, qazmaçıların, istismarçıların elmi əsərlərində və məcmuələrində öz əksini tapmışdır. Bunlara misal olaraq Y.Cəfərovun "Qazmada gilli məhlullar" (1941), Ə.Əlizadə və M.Ağabəyovun "Azərbaycan neft sənayesinin yeni qüvvətli yüksəlişi uğrunda" (1941), A.A.Linevski "Neft quyularının mürəkkəbləşmiş şəkildə qazılması" (1941) adlı nəşrləri sadalamaq olar.

Bu sahədə Azərnəşrlə yanaşı Azərneftnəşr nəşriyyatının fəaliyyəti diqqəti çəkirdi. Ümumilikdə, 1942-1945-ci illərdə sənaye və texnikanın müxtəlif sahələrinə aid Azərbaycan və rus dillərində 150 addan artıq kitab çap olunmuşdu: "Qaldırıcı traktorların və avtomobillərin neft qazına keçirilməsi" (1942), "Yeraltı təmir briqadasının çilingər və fəhləsinə kömək" (1943), "Neft necə çıxarılıb emal edilir" (1943), "Neftçıxaran operator və operator köməkçisi" (1944), "Neft-mədən işlərində kainatların yaraqlandırılması" (1944), eləcə də rus dilində "Резолюция научно-технической сессии по вопросам промысловой техники и геологии" (1941), "Памятка агитатора о борьбе за экономию топлива и электроэнергии" (1942), "Глубокое бурение на море" (1943), "Нефтепромысловое хозяйство" (1943) "Электроснабжение нефтяных промыслов"(1944), "Оборудование электроцехов автохозяйств нефтяных

районов” (1944), “Обслуживание нефтезаводского электрооборудования” (1944) kitablarını nümunə göstərmək olar.

Kənd təsərrüfatının müxtəlif sahələrində məhsuldarlığı artırmaq və aqrozootexniki üsulları geniş tətbiq etmək məqsədilə bir sıra nəzəri və təcrübi ədəbiyyat nəşr edilmişdir. 1941-1945-ci illərdə respublikada bitkiçilik, aqrotexniki, torpaqşünaslıq, baytarlıq və başqa sahələrə dair 120-dən çox kitab və kitabça çap olunub yayılmışdır: “Azərbaycan SSRİ-də pambığın becərilməsinə dair aqronomik göstərişlər”, V.Sidorovun “Dirrik və bostan bitkilərinin sortları və yüksək məhsul götürmək üsulları”, T.İ.Əliyevin “Azərbaycanın suvarılan rayonlarında hind darısı bitkisi”, F.Ə.Məlikovun “Azərbaycanda qoyunların törəməsini sürətlə artırmaq yolları”, A.H.Qədimov və H.M.Hacıyevin “Naftalan nefti baytarlıq təcrübəsində”, “İribuynuzlu mal-qarada taun xəstəliyinin qarşısını almaq və onu aradan qaldırmaq tədbirləri haqqında” və s. kitabları göstərmək olar.

Baxmayaraq ki, 1943-cü ildə Azərnəşrdə 694 adda 3 684 000 nüsxə kitab nəşr etmək planlaşdırılmışdı, ancaq mövcud şərait planın xeyli kəsrlə, yəni 370 adda 1 917 000 tirajla yerinə yetirilməsinə səbəb olmuşdu. Lakin partiya və hökumətin gördüyü tədbirlər sayəsində vəziyyət tezliklə normallaşmış, 1944-cü ildə elmin müxtəlif sahələrinə dair 605 adda 3 570 000 nüsxə kitab çap olunub oxucuların istifadəsinə verilmişdir.[3] Həm də bu kitabların bir çoxu böyük həcmli ictimai-siyasi və elmi kitablar idi. Siyasi, hərbi, ictimai və iqtisadi sahələr üzrə nəşriyyat planı artıqlaması ilə, bədii, kənd təsərrüfatı, tibb və uşaq ədəbiyyatı üzrə plan isə kəsirlə yerinə yetirilmişdir.

Müharibə şəraitində məktəbdə aparılan təlim və tədrisdə uşaqların ideya-siyasi tərbiyəsi ciddi əhəmiyyət kəsb edirdi. Bunun üçün isə təlim-tərbiyə işlərini müharibə tələblərinə müvafiq olaraq qurmaq, bütün məktəb fənlərinin tədrisində və tərbiyə məsələlərində bu tələbləri həyata keçirmək qarşıda duran əsas məqsədlərdən idi. Vətənpərvərliyinin gücləndirilməsi hər şeydən əvvəl, məktəb fənlərinin tədrisini, onun quruluşuna xələl gətirmədən, yenidən qurmağı tələb edirdi. Bu işdə ana dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, tarix, coğrafiya, və başqa fənlər daha böyük rol oynayırdı.

Çap edilmiş tədris kitablarından ən çox yeddillik və orta məktəblər, eləcə də yaşlılar və azsavadlılar məktəbləri və məktəbdənkənar təhsil üçün müxtəlif fənlər üzrə dərsliklər və dərs vəsaitləri nəşr edilmişdi: “1941-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olanlar üçün məlumat kitabı” (1941), Abelskaya, R.S. “Ata-analar şagirdlərin evdə dərs hazırlamalarına necə kömək etməlidirlər” (1941), “Azərbaycan SSR-də savadsızlığın və azsavadlılığın ləğvi üzrə kultəsgər işlərinin təşkili və aparılması qaydaları haqqında instruksiya”

[3] Mirəhmədov Ə. Sovet Azərbaycanının kitab mədəniyyəti.- Bakı: Aərnəşr, 1975.- S.46.

(1941), Əfəndiyev R. "Şagirdlərin fiziki tərbiyəsi və hərbi hazırlığı" (1942), "Orta məktəb proqramları: fizika və astronomiya" (1942), "Səpgili yatalaq: II-IV siniflər ücün diktant nümunəsi" (1942), İsaxov M.İ. "Müharibə şəraitində məktəblilərin kənd-təsərrüfat işlərində iştirakı" (1942), "İbtidai, natamam orta və orta məktəblərin I-IV sinif şagirdlərinin hərbi-fiziki hazırlığı haqqında" (1943), "Orta məktəb proqramları: matematika" (1943), "Buraxılış siniflərilə işləmə qaydaları haqqında" (1944), "Kamal attestatı imtahanları və yeddiillik məktəblərdə buraxılış imtahanları haqqında" (1944), "Məktəblinin təmiz və səliqəli olması uğrunda müəllim üçün yaddaş" (1944), "Orta və yeddiillik məktəblərin IV siniflərində buraxılış imtahanlarını kecirmək üçün biletlər" (1945).

Bu dövrdə ibtidai, yeddillik və orta ixtisas məktəbləri üçün 630.000 nüsxəyə yaxın ümumi tirajla cəmi 58 adda dərslik və dərs vəsaiti nəşr edilmişdi. Bu ədəbiyyatın çox hissəsini Azərbaycan dilində buraxılan kitablar və rus dilindən tərcümələr təşkil edirdi. Müharibə illərində azərbaycanlı müəlliflərin ibtidai, natamam orta və orta məktəblər üçün ana dilində, ədəbiyyata, tarixə, coğrafiyaya dair orijinal dərslikləri çap olunsa da, yeddillik və orta məktəblər üçün riyaziyyat, fizika, kimya, rəsmxətt və s. texniki sahələr üzrə dərsliklər təəssüf ki, yox idi. Dövrün kitab nəşrinin təhlili göstərir ki, 1942-1945-ci illərdə Azərbaycan dilində 41 adda 500.000 nüsxə ümumi tirajla ibtidai və orta məktəblər üçün tədris kitabları nəşr olunmuşdu. Bu dərsliklərin hər birinin tirajı orta hesabla 15.000 - 20.000 nüsxə idi. Bu dövrdə nəşr olunan və geniş yayılan dərsliklərdən Abasov Ə. "Azərbaycan dilinin qrammatikası" (1941), "Yazı qaydalarından çalışmalar" (2-ci çapı, 1941), Araslı H. "Qədim ədəbiyyat. Azərbaycan və dünya ədəbiyyatı" (1941), Kosminski E.A. "Orta əsrlər tarixi" (1941), Baranski N.N. "SSRİ fiziki coğrafiyası" (1941), Abdullayev A. "Azərbaycan dili: Qrammatika və yazı qaydaları" (1942), Barkov A.S. "Fiziki coğrafiya" (1942), Pobedinski B.Q. "Hərbi topoqrafiyanın əsas məsələlərinin öyrənilməsinə orta məktəb rəsmxətt və riyaziyyat kursunun tətbiqi" (1942), Rəfili M. XIX əsr ədəbiyyatı: "Azərbaycan və dünya ədəbiyyatı" (1941), "SSRİ tarixi" (1942), Terexova L.Q. "Coğrafiya" (1943), Vsesvyatski B.V. "Botanika" (1944), Berezanskaya Y.S. "Hesab məsələ və misalları" (1944) və başqalarını nümunə göstərmək olar.

Ümumiyyətlə, Azərbaycan SSR Xalq Maarif Komissarlığı, İbtidai və Orta Məktəblər İdarəsinin göstərişi ilə 1942-ci ildə 42 adda 456 600 nüsxə, 1943-cü ildə 81 adda 358 min nüsxə, 1944-cü ildə 219 adda 1.669 000 nüsxə, 1945-ci ildə isə 382 adda 9 453 000 nüsxə Azərbaycan və rus dillərində dərslik və dərs vəsaiti çapdan buraxılmışdı.[4]

[4]Xəlilov A. Böyük Vətən Müharibəsi illərində Azərbaycanda uşaq ədəbiyyatının nəşri //Elmi əsərlər: kitabxanaşünaslıq və biblioqrafiya seriyası /ADU.-Bakı,1973.- №1.-S.33.

Böyük Vətən müharibəsi illərində ali və ali texniki məktəblər üçün respublika nəşriyyatları bir neçə adda tədris kitabı çapdan buraxmışdı. "Arqanik kimyadan praktiki məşğələlərə rəhbərlik" (1941), K.A.Putilovun "Fizika kursu" (1941 və 1942-ci il nəşrləri), Y.Cəfərovun "Qazmada gilli məhsullar" (1945); Ə.Əbdürrəhimanovun "Kimyadan əyani vəsait və onun istifadə üsulları" (1942); X.Şirinovun "Elektrik" (əlyazması hüququnda 1942); M.Q.Məmmədəlinin "Neft kimyası texnologiyası üzrə praktiki məşğələlər üçün qısa rəhbər" (1942); A.Şıxızadənin "Kimya müəllimlərinə metodik kömək" (1943) və s. əhəmiyyətli tədris vəsaitlərindən hesab olunurdu. Ali məktəblər üçün çap edilmiş dərslikərin hər birinin tirajı orta hesabla 1.000-2.000 nüsxə olmuşdur. Bu dərsliklərin bir çoxu elmi cəhətdən yüksək səviyyədə olmuş və təkrarən müxtəlif illərdə çapdan buraxılmış və xeyli müddət istifadə edilmişdir.

Böyük Vətən müharibəsi illərində görkəmli şair və yazıçılarımız, dramaturq və jurnalistlərimiz cəbhədə düşmənə qarşı vuruşmaqla bərabər, müharibənin qanlı döyüş səhnələrini təsvir edən, Vətəni müdafiəyə çağıran yeni-yeni əsərlər, cəbhə şeirləri və qalibiyyət dastanları yaradırdılar. Nəşriyyatlar faşizm zülmünün ifşası, hitlerçi qəsbkarlara qarşı qəzəb və nifrət mövzusunda yazılmış kitabları təcili olaraq nəşr edib arxa cəbhənin oxucularına və habelə döyüşçülərə çatdırırdılar. Müasir şair və yazıçıların aktual mövzularda əsərləri daha geniş ölçüdə, kütləvi tirajla buraxılırdı. Çünki onlarda Vətəni müdafiə mövzusu qabarıq şəkildə əks olunurdu: Nizami Gəncəvi "Xosrov və Şirin" (1941), "İsgəndərnamə" (1941), Mir Cəlal "Xalqın ürək sözü" (1941), "Vətən hekayələri" (1942), "Vətən yaraları" (1943), "Vətən" (1944), "Həyat hekayələri" (1945), Əbdürrəhim bəy Haqverdiyev "Hekayələr" (1941), Rəsul Rza "Vətən" (1942), "İntiqam! İntiqam!" (1943), Mehdi Hüseyn "Vətən çiçəkləri" (1943), Əbülhəsən "Görüş yeri" (1943), Cəfər Xəndan "Cəbhə şeirləri" (1942), "İlk ayrılıq" (1944), Məmməd Rahim "Qüdrət nəğmələri" (1942), Vətən sevgisi (1943), Süleyman Rüstəm "Ana və poçtalyon" (1943), "Gün o gün olsun ki..." (1943) və başqaları belə ədəbi nümunələrdəndir.

Müharibə şəraiti olmasına baxmayaraq nəşriyyatlarımız gənc nəslin millimənəvi dəyərlərinin formalaşmasına xüsusi diqqət yetirmiş Azərbaycan xalqının qəhrəman keçmişini, adət-ənənələrini, tarixini əks etdirən folklor nümunələri də çap etmişdir: "Koroğlu" (1941), "Böyük Vətən Müharibəsi haqqında aşıq şeirləri" (1942), "Bayatılar" (1943), "Dədə Qorqud" (1943), "Koroğlu qoşmaları" (1943), "El sözləri" (1944), "Qaçaq Nəbi" (1941), "Azərbaycan nağılları" (Azərbaycan və rus dillərində) və s. çap olunmuşdu. Nəşriyyatlar oxucuları rus və xarici ədəbiyyatın görkəmli nümayəndələrinin əsərləri ilə tərcümə kitabları vasitəsilə tanış edirdilər ki, bu həm oxucuların dünya ədəbiyyatı nümunələrinə yaxından bələd olmasına imkan yaratmış, eyni zamanda da ölkələrarası ədəbi əlaqələrin inkişafına öz yüksək töhfəsini vermişdi: İ.Franko "Se-

çilmiş əsərləri" (1941), H.Heyne "Seçilmiş şeirlər" (1942), Ö.Xəyyam "Rübailər" (1944), Ostrovski N. "Polad necə bərkidi" (1941), A.S.Puşkin "Poltava" (1942), V. Şekspir "Kral Lir" (1941), Qaydar A. "Timur və onun komandası" (1941), M.Qorki "Cəsurlara eşq olsun" (1942) "Sərçə balası" (1941), "Uşaqlar" (1945), A.S.Puşkin "Balıqçı və balıq nağılı" (1945) və s.

Düşmən geri çəkildikcə arxa cəbhədə təsərrüfatın bütün sahələrində olduğu kimi nəşriyyat və poliqrafiya işlərində də müəyyən irəliləyiş hiss olunurdu. Təkcə Azərbaycan Dövlət Nəşriyyatı (Azərnəşr) 1944-cü ildə elmin müxtəlif sahələrinə dair 605 adda 3570 nüsxə kitab çap etmişdir. 1945-ci ilin planında 693 adda 4187 000 nüsxə kitab nəşr etmək nəzərdə tutulmuşdur. Maddi və texniki çətinliklərə baxmayaraq 1945-ci ildə nəşriyyat ictimai-siyasi, elmi-texniki, bədii və kütləvi kitablar, habelə çoxlu miqdarda dərslik və dərs vəsaiti çap edərək planı, əsasən yerinə yetirmişdir.[5]

Həmçinin Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı (Uşaqgəncnəşr) müharibə illərində uşaqları yaddan çıxarmamış, çətinliklərə baxmayaraq qəhrəmanlıq, mərdlik, vətənpərvərlik mövzusunda yazılmış müasir və klassik Azərbaycan yazıçılarının əsərlərinin, folklor nümunələrinin və eləcə də dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin nəşrinə geniş yer vermişdir. Nəşriyyat həm də buraxılan kitabların keyfiyyətcə gözəl və nəfis olmasını təmin etmək məqsədilə Azərbaycanın görkəmli rəssamlarından Qəzənfər Xalıqovu, Əmir Hacızadəni, Həsənağa Mustafayevi və başqalarını işə cəlb etmişdir ki, bunun da sayəsində bir sıra gözəl illüstrasiyalı kitablar meydana gəlmişdir. Bunlardan Nizami Gəncəvinin "Sehirli üzük" (1941), "Fitnə" (1941), "İsgəndər və çoban" (1941), Abdulla Şaiqin "Tıq-tıq xanım" (1942), "Yaz gəlir" (1945), Cəlil Məmmədquluzadənin "Buz" (1943), Mikayıl Müşfiqin "Şəngülüm, Şüngülüm, Məngülüm" (1943), "Şir və siçan" (1945), Mirmehdi Seyidzadənin "Ceyran" (1941), "Bizim əllər" (1944), Mirzə Ələkbər Sabirin "Məktəb uşaqlarına töhfə" (1943), "Qarğa və tülkü" (1945), "Uşaq və buz" (1945), "Yaz günləri" (1945), Mikayıl Rzaquluzadənin "Ağ dana" (1945), Nigar Rəfibəylinin "Balaca qəhrəman" (1942), "Günəşin cavabı" (1942), "Nağıllar" (1941), Mirvarid Dilbazinin "Uşaqlar üçün döyüş mahnıları (1942), "Vətən eşqi" (1942), Süleyman Sani Axundovun "Qaraca qız" (1943) adlı kitablarını nümunə göstərmək olar.

Qeyd edək ki, Uşaqgəncnəşrdə təkcə 1943-cü ildə 71 adda 29 000 nüsxə tirajla, 1944-cü ildə isə 87 adda 424 min nüsxə tirajla uşaq ədəbi-bədii əsərləri çapdan buraxılmışdır.[6]

Müharibə şəraitində digər idarə və müəssisələr kimi kitabxanaların da qar-

[5]Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri.- Bakı, 1989.- S.152.

[6] Xəlilov A. Böyük Vətən Müharibəsi illərində Azərbaycanda uşaq ədəbiyyatının nəşri //Elmi əsərlər: kitabxanaşünaslıq və biblioqrafiya seriyası /ADU.-Bakı.-1973.-№1.-S.34.

şısında böyük vəzifələr dururdu. Onlar öz fəaliyyətini ucsuz-bucaqsız döyüş meydanlarında baş verən hadisələri, Azərbaycan oğullarının igidliklərini, faşistlərə qarşı böyük xalq qəzəbini ifadə edən dövri mətbuat səhifələrində çap edilən bədii və publisist yazıları təbliğ etmək, geniş oxucu kütləsini düşmən üzərində qələbə naminə fədakar əməyə ruhlandıran siyasi-kütləvi tədbirlər təşkil etmək istiqamətində aparmağa başlamışdı. Kitabxanaların Böyük Vətən müharibəsi illərindəki fəaliyyətini daha da yaxşılaşdırmaq, kitabxananın işini dövrün tələbinə uyğun olaraq təkmilləşdirmək məqsədilə nəşriyyatlarımız xüsusilə Azərbaycan Dövlət Kitab Palatası kitabxana işini, biblioqrafik fəaliyyəti də diqqətdən kənarda qoymayaraq biblioqrafiyalar, çap kataloqları, ədəbiyyat göstəriciləri, təlimat xarakterli nəşrlər çap etmişdir. "Azərbaycan Kitab Palatasının periodik nəşriyyatının kataloqu" (1941), "Azərbaycan SSR-nin kitab məhsulu illiyi-1939" (1941), "1941-ci ilin 2-ci yarısına qəzet və jurnalların kataloqu" (1941), "Nizami Gəncəvinin yubileyi üçün nəşr edilmiş kitabların kataloqu" (1941), "Üzeyir Hacıbəyov: biblioqrafik məlumat" (1941), Rzaquluzadə M.H. "İkiraqəmli cədvəl: "Ketter" sistemi üzrə" (1941), Tropovski L.N. "Onluq klassifikasiya: kütləvi kitabxanalar üçün qısa cədvəllər" (1941), "Köhnəlmiş ədəbiyyatın kitabxanadan çıxarılması qaydaları haqqında instruksiya" (1942), rus dilində isə "Библиография малярии в Азербайджане" (1941), Вартапетов Л.Д. "Нафталан: библиографический указатель" (1941), "Примерный тематический план лекций, докладов и бесед, рекомендованных отделом пропаганды и агитации ЦК КП(б) Азербайджана: библиография: в помощь лекторам, агитаторам и пропагандистам" (1942), "Инструкция о порядке исключения из библиотек устаревшей литературы" (1942), ümumi xarakterli məlumat nəşrlərindən isə "Справочник по городу Баку" (1941), "1941-ci ilin kalendarı" (1941), "1943-cü ilin kalendarı" (1942) çap edilmişdi.

Müharibənin sonuna doğru qələbənin yaxınlaşması, mətbuat və nəşriyyat idarələrini ruhlandırmışdı. 1945-də Azərnəşrin məhsuldarlığı yüksəlmiş və nəşriyyat, bütün çətinliklərə baxmayaraq, gənc nəsil üçün onlarca yeni, məzmunlu və yüksək ideyalı kitab nəşr etmişdi. Bu çap məhsulu içərisində başlıca yeri vətənpərvərlik mövzusunda əsərlər tuturdu. Bu kitablar "Komsomolun hərbi kitabxanası", "Böyük Vətən müharibəsi qəhrəmanları", "Məktəblinin hərbi kitabxanası", "Müdafiəyə hazır ol!" və başqa seriyalarla çap olunurdu.

Böyük Vətən müharibəsi xalqımızın qələbəsilə başa çatdıqdan sonra bütün qüvvələr xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə yönəldilmişdir. 1946-cı il mart ayının 18-də SSRİ Ali Sovetinin birinci sessiyasında SSRİ xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair dördüncü beşillik plan (1946-1950) qəbul edilmişdi. Bu beşillikdə elmin, maarifin, mədəniyyətin xüsusilə kitab nəşrinin, poliqrafiya sənayesinin inkişafına qayğı və diqqət artmışdı. Kommunist partiyası və Sovet hökuməti müharibə qurtaran kimi dərhal kitab nəşri

sahəsindəki geriliyi aradan qaldırmaq üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirməyə başlamış və bir neçə qərar qəbul etmiş, müşavirələr keçirilmişdir. Bunlardan 1945-ci ildə "Kitabın poliqrafik tərtibi haqqında", 1946-cı il noyabr ayının 28-də "Azərbaycan SSR-də poliqrafiya sənayesini və nəşriyyat işini inkişaf etdirmək tədbirləri haqqında", 1948-ci il avqustun 2-də "Azərbaycan SSR-də kitab ticarətini yaxşılaşdırmaq haqqında", 1950-ci il may ayının 25-də "Kənddə kitab satışını yaxşılaşdırmaq tədbirləri haqqında" adlı qərarlar qəbul edilmişdir. Bu qərarlarda kitabların poliqrafik və bədii tərtibatında ciddi nöqsanlar olduğu göstərilmiş və bunların aradan qaldırılması üçün konkret vəzifələr irəli sürülmüşdü. Mərkəzi Komitə kitabların poliqrafik və bədii tərtibatını yaxşılaşdırmaq üçün nəşriyyatların və mətbəələrin keyfiyyətli materiallarla kifayət qədər təmin edilməsini, yüksək ixtisaslı bədii tərtibatçıların, qravyura və cild ustalarının, fototexnik, mürəttib və çapçıların hazırlanmasını təşkil etməyi əlaqədar komissarlıqlardan, idarə və təşkilatlardan tələb etmişdi. Nəşriyyatlar tərəfindən buraxılan kitab məhsulunun maya dəyərini aşağı salmaq, mağazalarda kitabların yığılıb qalması hallarını aradan qaldırmaq tədbirləri ilə yanaşı, mətbəələrin texniki vəziyyətini və mətbəə işçilərinin maddi-məişət vəziyyətini yaxşılaşdırmaq sahəsində də konkret vəzifələr irəli sürülmüşdü. Həmçinin kitab ticarətini yaxşılaşdırmaq üçün ilk növbədə kitab nəşrini inkişaf etdirmək, bu sahədəki nöqsanları dərhal aradan qaldırmaq üçün qarşıya mühüm vəzifələr qoyulmuşdu. Bu mühüm tədbirlərin nəticəsi olaraq 1946-1950-ci illərdə respublikamızda kitab nəşrinin və ümumiyyətlə poliqrafiya sənayesinin inkişafında əsaslı dönüş yaranmışdı. Hər şeydən əvvəl kitab nəşrinin mövzu əhatəsi müəyyən qədər genişləndirilmiş, ad və tiraj səviyyəsi xeyli artırılmışdı. Kitab nəşrinin həm kəmiyyət, həm də keyfiyyət səviyyəsi xeyli yüksəlmiş, onların həcmi ildən ilə artmağa başlamışdır. Əgər 1940-cı ildə respublikada 1141 adda 4 974 000 nüsxə ümumi tirajla kitab çap olunurdusa, 1950-ci ildə 1030 adda 7 967 000 nüsxə ümumi tirajla kitab buraxılmışdır ki, bu da 1940-cı ildəki göstəricilərə nisbətən ad etibarilə müəyyən qədər azdırsa tiraj etibarilə 3 000 000 nüsxəyə qədər çoxdur. Təkcə Azərbaycan dilində 1940-cı ildəki 614 adda 3 941 000 nüsxə kitab əvəzinə, 1950-ci ildə 720 adda 6 453 000 nüsxə ümumi tirajla kitab çap olunmuşdur ki, bu da 1940-cı ildəkindən 106 adda 2 mln 512 min nüsxə çoxdur.[7]

1945-1950-ci illərdə nəşriyyatlarda kənd əməkçiləri üçün məzmunlu və sadə dildə yazılmış bir çox kitablar çap edilmişdir: Şahverdov A.A. "Traktorçuya kömək" (1947), "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəlt-

[7] Həsənov H. Böyük Vətən Müharibəsindən sonra xalq təsərrüfatının bərpa və inkişafı uğrunda mübarizə dövründə Azərbaycanda kitab nəşri):(1945-1952) //Elmi əsərlər: kitabxanaşünaslıq və biblioqrafiya seriyası /ADU.-Bakı, 1973.-№2.-S.23.

mək tədbirləri haqqında" (1947), Qromaçevski V.N. "Azərbaycanın dənli bitkilərinin əsas sortları" (1948), Seyidov H.Ə. "Azərbaycanın kənd təsərrüfatını daha da yüksəltmək uğrunda" (1948), "Kənd təsərrüfatı artelinin nümunəvi Nizamnaməsi" (1950), "Toxumların keyfiyyətini təyin etmək üsulları" (1950), "Kolxozlarda sudan istifadə planını tərtib etmək və yerinə yetirmək üzrə müvəqqəti göstərişlər" (1950) və s.

Müharibədən sonrakı dövrdə elmi əsərlərin nəşri geniş miqyas almış, onların nəşri müharibədən əvvəlki səviyyəni ötüb keçmişdi. 1945-1949-cu illərdə elmi nəşrlərin tirajı 285 milyon nüsxə təşkil etmişdir. Əgər 1940-cı ildə 179 min nüsxə 82 adda elmi ədəbiyyat buraxılmışdırsa, 1950-ci ildə 465 min nüsxə ümumi tirajla 102 adda kitab və kitabça nəşr olunmuşdur.[8]

Müharibədən sonrakı illərdə xalq təsərrüfatını bərpa və inkişaf etdirmək məqsədilə sənaye və texnikanın müxtəlif sahələrinə dair kitabların nəşri davam etmiş və "Quyularda yeraltı təmir briqadaları üçün təhlükəsizlik texnikasına aid təlimat" (1946), "Hava və kabel şəbəkələrinin montaj elektromontyorları üçün təhlükəsizlik yaddaşı" (1947), "Burma qazımada işləyən fəhlələr üçün təhlükəsizlik texnikasına aid yaddaş" (1947), "Neft çıxarılmasında təhlükəsizlik texnikasına dair təlimat" (1947), "Qaz qaynaqçısı üçün təhlükəsizlik texnikasına aid yaddaş" (1948), "Maşınqayırma zavodunun fəhlələri üçün təhlükəsizlik texnikasına aid yaddaş" (1948), "Dərin nasos quyularının yeraltı təmiri zamanı təhlükəsizlik texnikasına dair təlimat" (1948), "Elektrik stansiyalarının istilik sexləri və istilik şəbəkələrində çalışan işçilər üçün təhlükəsizlik qaydaları" (1949), "Avtonəqliyyatda etilli benzin daşıyan işçilər üçün təhlükəsizlik texnikasına dair yaddaş" (1950), "Benzin etilləşdirən qurucuların işçiləri üçün təhlükəsizlik texnikasına dair yaddaş" (1950) və başqa dəyərli kitablar işıq üzü görmüşdür.

Beləliklə, 1940-1950-ci illərdə Azərbaycanda kitab nəşrinin vəziyyətinin təhlili göstərdi ki, dövrün və şəraitin xüsusiyyətlərinə uyğun olaraq kitab nəşrinin vəziyyəti yüksələn xətlə inkişaf etmiş, müharibə dövründə kitab çapı sahəsində qarşıya çıxmış problemlər, müharibədən sonrakı bərpa və quruculuq illərində tədricən aradan qaldırılmış, nəşriyyatların fəaliyyəti təkmilləşdirilmiş, çap məhsulunun keyfiyyəti getdikcə daha da yaxşılaşmış və çap olunmuş kitablar məzmun baxımından elmin, texnikanın, ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sahələrini əhatə etmişdir.

Kərim Tahirov,
professor,
Əməkdar mədəniyyət işçisi

[8] Allahverdiyev B.V. Sosialist xalq təsərrüfatının bərpa və inkişafı dövründə Azərbaycanda texniki ədəbiyyatın nəşri (1945-1953) //Elmi əsərlər: Kitabxanaşünaslıq və biblioqrafiya seriyası /ADU.- Bakı, 1973.- №1.- S.39.

0 ÜMUMİ ŞÖBƏ

00 Elm və mədəniyyətin ümumi məsələləri

001 Elm. Elmşünaslıq

1. Aleksandrov, Q.F. Böyük Vətən müharibəsi və ictimai elm /Qriqori Aleksandrov; tərc. Q.Abbasov; red. Ə.Musayev.- Bakı: Azərnəşr, 1942.- 16 s.; 16 sm.- 4000 nüs.

2. Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının 27 illiyinə həsr edilmiş elmi sessiyanın məramnaməsi.- Bakı: ADU nəşri, 1947.- 32 s.; 19 sm.- 1000 nüs.

3. Azərbaycan Sovet hakimiyyəti qurulmasının 29-cu ildönümünə həsr edilmiş S.M.Kirov ad. Azərbaycan Dövlət Darülfününun professor-müəllim heyətinin elmi sessiyası /SSRİ Ali Təhsil Nazirliyi.- Bakı: ADD Nəşriyyatı, 1949.- 30 s.; 16 sm.- 600 nüs.

4. Azərbaycan SSR Elmlər Akademiyasının 1945-ci il ekspedisiyaları /Azərb. SSR EA.- Bakı: Azərb.SSR EA, 1947.- 188 s.; 25 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

5. Azərbaycan SSR siyasi və elmi bilikləri intişar etdirən cəmiyyətin Nizamnaməsi.- Bakı, 1948.- 29 s.; 16 sm.- Rus mətnilə birlikdə.- 2000 nüs.

6. Azərbaycan SSR siyasi və elmi bilikləri yayan cəmiyyətin Nizamnaməsi.- Bakı, 1949.- 29 s.; 16 sm.- Rus mətnilə birlikdə.- 2500 nüs.

7. Böyük rus alimləri /müəl.: Y.Məmmədov, R.Hüseynov, Ş.Mehdiyev, N.Kərəmov; red.: Ş.Ələkbərov, H.Hüseynov.- Bakı: Uşaqgəncnəşr, 1950.- 99 s.; 19 sm.- 10000 nüs.

8. Dorfman, V.A. M.B.Lomonosov: həyat və yaradıcılığı /V.A.Dorfman; red. P.Babayev; tərc. ed. P.Mirzəbabalı; tərc. red. M.Babayev.- Bakı: SSRİ EA Azərb. filialı nəşri, 1941.- 76 s.; 16 sm.- (Elmi populyar seriya).- 1000 nüs.

9. Əbdürrəhimov, Ə. Elmin təbiətlə yarışı /Ə.Əbdürrəhimov; red. S.Hüseynov.- Bakı: Azərnəşr, 1946.- 56 s.; 19 sm.- (Elmi-Kütləvi Kitabxana).- 10000 nüs.

10. Hüseynov, H.N. Görkəmli Azərbaycan alimi Abbasqulu ağa Bakıxanov: Bakıda oxunmuş mühazirənin stenoqramı /Heydər Hüseynov.- Bakı: Azərb. SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət, 1949.- 43 s.; 19 sm.- 3000 nüs.

11. İosif Vissarionoviç Stalinin anadan olmasının 70 illiyinə həsr olunmuş elmi sessiyaların və teoretik konfransların məramnaməsi.- Bakı, 1949.- 27 s.; 21 sm.- Rus mətnilə birlikdə.- 1000 nüs.

12. Qarayev, A.İ. V.İ.Lenin adına Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyasının avqust sessiyasının yekunları /A.İ.Qarayev; red. M.Qasımov.- Bakı, 1949.- 35 s.; 19 sm.- 10000 nüs.

13. M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun əsərləri /red. Q.Xəlilov.- Bakı, 1949.- 149 s.; 23 sm.- 550 nüs.

14. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfünu aspirantlarının elmi sessiyasında edilən məruzələrin tezisləri.- Bakı: ADD-nin nəşri, 1948.- 76 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1200 nüs.

15. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun əsərləri /red. A.İ.Qarayev; Azərb. SSR Xalq Maarif Komissarlığı.- Bakı: ADD nəşri, 1945.- Cild 5.- 104 s.; 22 sm.- 1000 nüs.

16. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun əsərləri /red. A.İ.Qarayev; SSRİ Ali Təhsil Nazirliyi.- Bakı: ADU nəşr., 1948.- Cild 6.- 150 s.; 23 sm.- 1000 nüs.

17. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun əsərləri.- Bakı: ADD-nin nəşri, 1949.- Cild 7.- 106 s.; 22 sm.- 2000 nüs.

18. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun Azərbaycanda sovet hakimiyyəti qurulmasının XXVIII illiyinə həsr edilmiş professor və müəllim heyətinin elmi sessiyası /red. P.A.Şirəliyev.- Bakı: ADD nəşri, 1948.- 24 s.; 20 sm.- 1000 nüs.

19. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun Azərbaycanda sovet hakimiyyəti qurulmasının XXVIII illiyinə həsr edilmiş professor və müəllim heyətinin elmi sessiyasındakı məruzələrin tezisləri.- Bakı: ADD nəşri, 1948.- 104 s.; 20 sm.- 1000 nüs.

20. S.M.Kirov adına Azərbaycan Dövlət Darülfününun professor-müəllim heyətinin elmi sessiyası /red. kol.: M.A.Şirəliyev [və b.].- Bakı: ADD nəşri, 1949.- 154 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 600 nüs.

21. S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti akademik işçilərinin III elmi konferensiyası.- Bakı: ADD nəşriyyati, 1941.- 16 s.; 16 sm.- Mətn Azərb. və rus dillərindədir.- 500 nüs.

22. Sovet Azərbaycanının XXIII ildönümünə həsr olunmuş elmi sessiya məruzələrinin tezisləri /Azərb. SSR Xalq Maarif Komissarlığı, S.M.Kirov ad. ADU.- Bakı: ADU, 1943.- 138 s.; 22 sm.- Mətn Azərb. və rus dillərindədir.- 400 nüs.

23. V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun professor-müəllim heyətinin ÜİK(b)P qısa kursunun çapdan çıxmasının 10 illiyinə həsr edilmiş elmi sessiyası /Azərb. SSR Maarif Nazirliyi.- Bakı, 1948.- 2 s.; 17 sm.- 200 nüs.

24. Yaqubov, Ə.Ə. Azərbaycan alimləri Böyük Vətən müharibəsi günlərində /Əhəd Yaqubov; SSRİ EA Azərb. filialı.- Bakı, 1942.- 33 s.; 15 sm.- 1000 nüs.

25. Yaqubov, Ə.Ə. Sovet İttifaqında elm və mədəniyyətin inkişafı: sovet ordusu zabitlərinin Bakı qarnizonu evində oxunmuş açıq mühazirənin stenoqramı /Əhəd Yaqubov; red. A.Bayramov; Azərb. SSR Siyasi və Elmi Bilikləri İntişar Etdirən Cəmiyyət.- Bakı, 1949.- 19 s.; 20 sm.- 8000 nüs.

26. Zvorıgin, A.A. Ən mühüm texniki kəşf və ixtisarlarda vətənimizin birinci yer tutması /A.A.Zvorıgin; tərc. ed. M.Mirzəbabalı; tərc. red. Ə.Musayev; Azərb. SSR Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət.- Bakı: Birləşmiş nəşr., 1950.- 47 s.; 19 sm.- 6500 nüs.

***

27. Александров, Г. Великая Отечественная война и общественные науки: из доклада, прочитанного на общем собрании АН СССР 4 мая 1942 г. /Григорий Александров.- Баку: Азернешр, 1942.- 13 с.; 13 см.- 3000 экз.

28. Научная сессия Академии Наук Азербайджанской ССР, посвященная XXX годовщине установления Советской власти в Азербайджане 22-26 апр. 1950 г.: тезисы докладов /АН Азерб. ССР, Отд. Общественных Наук.- Баку: АН Азерб. ССР, 1950.- №277.- 38 с.; 18 см.- Текст на азерб. и русском языках.- 350 экз.

29. Научная сессия Академии Наук Азербайджанской ССР, посвященная XXX годовщине установления Советской власти в Азербайджане 22-26 апр. 1950 г.: тезисы докладов /АН Азерб. ССР, Отд. Физико-Технических Наук и Нефти.- Баку: АН Азерб. ССР, 1950.- №275.- 28 с.; 18 см.- Текст на азерб. и русском языках.- 350 экз.

30. Научная сессия Академии Наук Азербайджанской ССР, посвященная XXX годовщине установления Советской власти в Азербайджане 22-26 апр. 1950 г.: тезисы докладов /АН Азерб. ССР, Отд. Геолого-Химических Наук и Нефти.- Баку: АН Азерб. ССР, 1950.- №276.- 29 с.; 18 см.- Текст на азерб. и русском языках.- 350 экз.

31. Научная сессия Академии Наук Азербайджанской ССР, посвященная XXX годовщине установления Советской власти в Азербайджане 22-26 апр. 1950 г.: тезисы докладов /АН Азерб. ССР, Отделение Биологии и Сельскохозяйственных Наук.- Баку: АН Азерб. ССР, 1950.- № 274.- 48 с.; 19 см.- Текст на азерб. и русском языках.- 350 экз.

32. Научная сессия аспирантов Азербайджанского Государственного Университета им. С.М.Кирова /М-во Высшего Образования СССР, АГУ им. С.М.Кирова.- Баку: АГУ им. С.М.Кирова, 1948.- 16 с.; 18 см.- 1000 экз.

33. Научная сессия профессорско-преподавательского состава Азербайджанского Государственного Университета им. С.М.Кирова /отв. за вып. У.Гусейнов; М-во Высшего Образования СССР, АГУ им. С.М.Кирова.- Баку: АГУ им. С.М.Кирова, 1947.- 29 с.; 19 см.- 1000 экз.

008 Mədəni inkişaf. Mədəniyyət. Tərəqqi

34. Azərbaycanın maddi mədəniyyəti /red. S.M.Qazıyev; Azərb. SSR EA, Azərb. Tarixi Muzeyi.- Bakı: Azərb. SSR EA nəşri, 1949.- Cild 1.- 157 s.; 25 sm.- Mətn Azərb. və rus dillərindədir.- 800 nus.

35. Faşizm insan mədəniyyətini məhv edir /burax. məsul M.C.Cəfərov.- Bakı: Azərnəşr, 1941.- 88 s.; 17 sm.- 7000 nüs.

36. Zilberfarb, İ.İ. Faşizm mədəniyyətin düşmənidir /İ.İ.Zilberfarb; tərc. M.C.Miryəhyayev; red. H.Mehdi.- Bakı: Uşaqgəncnəşr, 1941.- 35 s.; 16 sm.- 4000 nüs.

***

37. Гусейнов, Г.Н. Советская власть и культура Азербайджанского народа /Гейдар Гусейнов; АН Азерб. ССР.- Баку: АзФАН, 1943.- 25 с.; 19 см.- 5000 экз.

01 Biblioqrafiya. Kataloqlar. Ədəbiyyat göstəriciləri

38. Aleksandr Sergeyeviç Puşkin: biblioqafiya: anadan olmasının 150 illiyi münasibətilə: oxucular üçün yaddaş /red. A.Rzaquliyev.- Bakı, 1949.- 16 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

39. Azərbaycan SSR nəşriyyatları tərəfindən 1950-ci ilin birinci rübündə nəşr edilmiş kitabların 1 №-li siyahısı /Azərb. Kitab Satışı Birliyi "Azərkitab".- Bakı: Birləşmiş nəşriyyat, 1950.- 19 s.; 19 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1500 nüs.

40. Azərbaycan SSR Yerli Sovetlərin seçkilərinə dair mühazirə mövzuları və ədəbiyyat siyahısı /red. Q.Qafarov; Azərb. SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi; Mərkəzi Mühazirə Bürosu.- Bakı, 1947.- 35 s.; 19 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

41. Azərbaycan SSR-nin kitab məhsulu illiyi 1939 /red. Ə.H.Qəhrəmanov; Azərb. Dövlət Kitab Palatası.- Bakı, 1941.- 90 s.; 20 sm.- Mətn

Azərb. və rus dillərindədir.- 500 nüs.

42. Cəfər Cabbarlı: biblioqafiya /tərt. ed. N.Axundov; red. K.Məmmədov; M.F.Axundov ad. Azərb. Respublika Ümumi Kitabxanası.- Bakı: Birləşmiş nəşr., 1950.- 64 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

43. Kitab kataloqu /tərt. A.K.Quliyev.- Bakı: Mədəni-Maarif Müəs. nəşri, 1948.- Buraxılış 1.- 38 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

44. Kitab kataloqu /tərt. A.K.Quliyev.- Bakı: Mədəni-Maarif Müəs. nəşri, 1948.- Buraxılış 2: Bədii ədəbiyyat, ədəbiyyatşünaslıq və tənqid.- 47 s.; 20 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

45. Kitab kataloqu: uşaq ədəbiyyatı: uşaq və məktəb kitabxanaları üçün /tərt. A.K.Quliyev.- Bakı: Mədəni-Maarif Müəs. nəşri, 1949.- 60 s.; 21 sm.- Mətn Azərb. və rus dillərindədir.- 1000 nüs.

46. Qabaqcıl sovet biologiyası uğrunda: müxtəsər ədəbiyyat siyahısı /red. S.A.Ələkbərov; M.F.Axundov adına Azərb. Resp. Ümumi Kitabxanasının Kitabxanaşünaslıq və Tövsiyə Biblioqrafiya Kabinəsi.- Bakı, 1949.- 15 s.; 19 sm.- 1000 nüs.

47. Qəhrəmanov, Ə.H. Aleksandr Sergeyeviç Puşkin 1799-1949: ədəbiyyat göstəricisi /Əliheydər Qəhrəmanov; red. Ə.Musayev; Azərb. SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi, Azərb. Dövlət Kitab Palatası.- Bakı, 1949.- 124 s.; 15 sm.- (Anadan olmasının 150 illiyi münasibətilə).- 1000 nüs.

48. Qəhrəmanov, Ə.H. Böyük Azərbaycan şairi Nizami Gəncəvi: biblioqrafik göstərici /Əliheydər Qəhrəmanov; red. A.Musayev; Azərb. SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri Komitəsi.- Bakı, 1947.- 86 s.; 21 sm.- (Anadan olmasının 800 illiyi münasibətilə).- 1000 nüs.

49. Qəhrəmanov, Ə.H. Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı 22 iyun 1941-ci il - 3 sentyabr 1945-ci il : biblioqrafik göstərici /Əliheydər Qəhrəmanov; red. Q.Musayev; Azərb. Dövlət Kitab Palatası.- Bakı, 1946.- 160 s.; 20 sm.- 1000 nüs.

50. Qəhrəmanov, Ə.H. Böyük yazıçı A.M.Qorki: biblioqrafik göstərici /Əliheydər Qəhrəmanov; red. Q.Musayev; Azərb. Dövlət Kitab Palatası.- Bakı, 1946.- 48 s.; 21 sm.- (Ölümünün 10 illiyi münasibətilə).- 500 nüs.

51. Qəhrəmanov, Ə.H. Qardaş xalqların ədəbiyyatı: biblioqrafik göstərici /Əliheydər Qəhrəmanov; red. Ə.Musayev; Azərb. Dövlət Kitab Palatası.- Bakı, 1948.- 95 s.; 18 sm.- 1000 nüs.

52. Quliyev, A.K. Süleyman Rüstəm: biblioqrafiya /A.K.Quliyev; red. N.Axundov.- Bakı, 1950.- 96 s.; 20 sm.- 1000 nüs.

53. 1941-ci ilin 2-ci yarısına qəzet və jurnalların kataloqu /red. T.S.Əliyev; Mətbuatı Yayan və Ekspedisiya edən Şöbə.- Bakı, 1941.- 12 s.; 21

sm.- Mətn Azərb. və rus dillərindədir.- 2000 nüs.

54. 1949-cu ilə qəzet və jurnalların kataloqu /red. Qalkin.- Bakı, 1948.- 15 s.; 19 sm.- 600 nüs.

55. 1949/50-ci dərs ilində partiya maarifi şəbəkəsi üçün dərs planları və ədəbiyyat siyahıları /Azərb. K(b)P MK Təbliğat və Təşviqat Şöbəsi.- Bakı, 1949.- 120 s.; 20 sm.- 3000 nüs.

56. Mirzə Fətəli Axundov: müxtəsər ədəbiyyat göstəricisi /tərt. N.F.Axundov; red. N.Lerman.- Bakı, 1948.- 16 s.; 19 sm.- Mətn Azərb. və rus dillərindədir.-1000 nüs.

